Konfransı giriş sözü ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova açaraq qonaqları və Ənvər Qasımzadənin tədbirə dəvət olunmuş ailə üzvlərini salamlayıb. Böyük şəxsiyyət, dövlət xadimi olan Ənvər Qasımzadənin həyat və yaradıcılığı haqqında söhbət açan rektor, iki bölmə üzrə aparılacaq konfrans barədə tədbir iştirakçılarına məlumat verib.

"Akademik Ənvər Qasımzadənin həyat və yaradıcılığı" adlı geniş məruzə ilə çıxış edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Nərgiz Abdullayeva görkəmli memar haqqında maraqlı məlumatları diqqətə çatdırıb. Ənvər Qasımzadənin ömür yolundan ətraflı bəhs edən N.Abdullayeva onun qazandığı uğurlarda zəhmətsevərliyinin, təvazökarlığının və milli təəssübkeşliyinin mühüm rol oynadığını söyləyib.

Konfransda çıxış edən təhsil naziri Misir Mərdanov Ənvər Qasımzadənin mənalı həyat yolundan geniş söhbət açaraq cəmi 57 il ömür sürmüş tanınmış memarın böyük işlər və layihələr həyata keçirdiyini, onun haqqında gənc nəslin çox az məlumata malik olduğunu deyib. Nazir Ə.Qasımzadə haqqında gənclərə daha geniş məlumat verilməsinin zəruriliyini qeyd edib.

Misir Mərdanov bildirib ki, Ə.Qasımzadə tanınmış ictimai xadim, görkəmli memar, xeyirxah, vətənpərvər və təvazökar insan kimi hər zaman xatırlanacaq. Nazir çıxışının sonunda Ənvər Qasımzadənin 100 illik yubileyi münasibəti ilə keçirilən bu tədbirin təşkilatçılarının əməyini yüksək dəyərləndirib.

Tədbirdə daha sonra professor Nurqələm Mikayılov, professor Rəhim Şükürov, dosent Rizvan Allahverdiyev çıxış edərək Ənvər Qasımzadə haqqında öz xatirələrini danışıblar.

Konfransda, həmçinin müxtəlif beynəlxalq müsabiqələrdə qalib gəlmiş gənc memarlara diplom və hədiyyələr təqdim olunub.

Sonda tədbir iştirakçıları Ənvər Qasımzadənin həyat və yaradıcılığına həsr edilmiş filmə baxıblar.